# Gənclərin vətənpərvərlik tərbiyəsində milli ideologiyanın aşılanması

**Fəridə Allahverdiyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universitetinin dosenti,*
**E-mail:** feride.esed1@gmail.com
**Afət Bayramova**
*Bakı Dövlət Universitetinin baş müəllimi*

**Rəyçilər:** ped.ü.e.d., prof. L.N. Qasımova,
ped.ü.e.d., prof. A.N. Abbasov

**Açar sözlər:** milli ideologiya, inkişaf, gənclər, vətəni sevdirmək, şəxsiyyət, pedaqoji ustalıq, mənəvi sərvətimiz

**Ключевые слова:** национальная идеология, развитие, молодежь, любить родину, личность, педагогическая профессиональность, моральное богатство

**Key words:** national ideology, development, youth, to love homeland, personality, pedagogical proficiency, moral wealth

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması daimi, əbədi olması bundan da çətindir.

***Heydər Əliyev***

"Təhsil millətin gələcəyidir" — deyən ümummilli liderimiz Heydər Əliyev bu müdrik kəlamları ilə müstəqillik yolunda inamlı addımlarını atan bir dövlətin uğurlu inkişaf yolunu göstərmişdir. Heydər Əliyev yolunun layiqli davamçısı Respublika Prezidenti İlham Əliyev də Azərbaycan təhsilini yeni inkişaf səviyyəsinə çatdırmağa nail olmuşdur. Azərbaycanın qüdrətli sabahı, bu gün təhsil sahəsində qazanılan nailiyyətlərin əsas şərtidir. Milli müstəqilliyimiz, suveren dövlətimiz tarixi mənəvi dəyərlərimizi inkişaf etdirərək yüksək keyfiyyətə malik milli birliyimizi formalaşdırmağımızı tələb edir. Bu barədə ən dəyərli vasitə müəllimlərin dərs prosesində yüksək pedaqoji ustalığa malik olmasıdır. Məqsədə nail olmaq üçün fərdi şurumuzun milli şüurumuza, şəxsi namus qeyrətimizin milli namus qeyrətimizə tranformasiya edilməsini müəllimlər təlim prosesində gənc nəslin şüurunda formalaşdırmalıdırlar. Bu o deməkdir ki, biz elə bir inkişaf səviyyəsinə çatmalıyıq ki, milli ədavət hər bir azərbaycanlının ruhundan, sözündən, əməlindən birdəfəlik silinmiş olsun. Müəllimlər dərs prosesində yeniyetmə və gənclərin düşüncələrini elə istiqamətləndirməlidirlər ki, onlar Vətənin milli mənafeyinin tərəqqisi naminə mübarizə aparmağı bacarsınlar.

Vətənimizin ərazi bütövlüyünün bərpa və həmişəlik təmin edilməsinin, xalqımızın xoşbəxtlik aqibətinin daimi xarakterinin nə qədər lazım olduğunu gənclərdə formalaşdırmaq lazımdır. Bunun üçün gənclərin əməlləri, düşüncələri öncə bütövlükdə öz xalqımızın mənafeyinə tabe edilməlidir. Belə olan tərzdə milli mənəviyyatımızın, əxlaqımızın formalaşması milli ideologiyamızın qarantına çevrilər.

Milli ideologiyamız qanımızla, ailə, məktəb vasitəsi ilə hisslərimizə, şüurumuza hopdurulmalı, ömrümüzə, həyatımıza hakim kəsilməlidir. Yəni, təkcə milli ideologiyamız,

dövlət siyasətimiz, Təhsil Qanunumuz, pedaqoji metodik nəzəriyyəmiz və praktikamız yox, milli ictimai şüurumuzun bütün formaları dəyərli ideya kimi qəbul edilməli, ona tabe olmalı, onu təbliğ etməlidir. Siyasi və hüquqi təsəvvürlərimiz, baxışlarımız, ədəbiyyatımız, dinimiz, yeni sosial baxışlarımız milli ideologiyamızın müdafiəçisi olmalıdır. Müəllimlər belə problemlərin həlli yollarını elə məktəb illərində gənc nəslə aşılamalıdırlar. Bunları hər bir gəncin əqidəsində formalaşdırmasaq bu günümüzün və sabahımızın təhlükəsiz milli mövcudluğumuzu, müstəqilliyimizi, azadlığımızı və xöşbəxtliyimizi təmin etmək iktidarında olmarıq.

Dövlətin ideologiyasını sevdirmək ümumiyyətlə məktəblilərin tərbiyəsinin bütün sistem komponentlərinin əsasını, zirvəsini təşkil etməlidir. Deməli hər bir fənn müəlliminin, sinif rəhbərini, bir sözlə bütün təhsil-tərbiyə qurumunun proqramında ilkin ideya dövlətin ideologiyasına, Vətənə məhəbbət olmalıdır. Yəni hər il məktəbin perspektiv məqsədlər proqramı, illik iş planı işlənib hazırlanarkən bu ideyalar ön plana çəkilməlidir.

Tərbiyənin bütün tərkib hissələri üzrə proqramlaşdırılan və həyata keçirilən bütün fəaliyyət növlərinin hamısı ideya-siyasi tərbiyə ilə motivləşdirilməlidir. Məktəb fəaliyyətinin məqsədi, məzmunu, nəticəsi də Azərbaycan dövlətinin ideologiyasına xidmət etməlidir, böyüklü-kiçikli bütün gənclərin, məktəblilərin fəaliyyətləri bu qanun üzərində köklənməlidir. Hər bir Azərbaycanlı öz şüur və təfəkkür düşüncəsini, maddi mənəvi sərvətlərini, ümumsosial və peşə səriştəliliyini həmişə və hər yerdə öz xalqına, öz Vətəninə var qüvvəsi ilə həsr etməlidir. Belə bacarığa yiyələnmək üçün hər bir vətəndaşımızdan fiziki "məni" ilə yanaşı onun mənəvi "Məni" də təşəkkül tapmalıdır. Yalnız aparılan ideya-siyasi tərbiyə nəticəsində, milli özünəmarağımızı, milli özünüdərkimizi, milli fəallığımızı, bir sözlə milli qadirliyimizi təmin edən "Mənlərimizi" formalaşdıra bilərik.

İnsanların davranışının cəmiyyət tərəfindən tənzimlənməsinə bir-birindən qarşılıqlı surətdə asılı olan iki vəzifə daxildir:

— cəmiyyətin əxlaqı şüurunda normalar, prinsiplər, ideyalar, xeyir və şər və s. anlayışlar şəklində əks olunaraq əsaslandırılan mənəvi tələbatların yaradılması;

— ikincisi isə bu tələbatların və onlarla bağlı olan anlayışların hər bir insanın şüuruna elə yerləşdirilməlidir ki, o, öz hərəkətlərini saxlamağı və istiqamətləndirməyi bacarsın, həmçinin ictimai davranışın tənzimlənməsi prosesində iştirak edə bilsin, yəni digər insanlara tələblər irəli sürməyi və onların hərəkətlərini dəyərləndirməyi bacarsın.

Şəxsiyyətin müvafiq inam mənəvi meyllər, hisslər, vərdişlər, sabit mənəvi keyfiyyətləri özündə əks etdirən bu ikinci vəzifə mənəvi tərbiyə vasitəsi ilə həll edilə bilər. Hər bir cəmiyyətdə mənəvi tərbiyə prosesinin məzmunu, hər şeydən əvvəl, onun məqsədləri ilə müəyyənləşdirilir. Bu isə öz növbəsində ictimai münasibətlərin xarakteri və müvafiq ideologiyası ilə şərtlənir.

Bu bir həqiqətdir ki, uzun illər insanlar soy kökündən uzaqlaşdırılmış, "Sovet vətənpərvərliyi" geniş təbliğ olunmuş, proletar beynəlmiləlçiliyi haqqında saysız kitablar yazılmışdır. Bütün bunlara baxmayaraq xalq öz içindən gələn səsi nəsildən-nəslə ötürməyi bacarmışdır və xalq hər zaman Vətənin şərəfini uca tutmuşdur. İndi dövlətin ideologiyasını məktəblilərə sevdirmək üçün ilk öncə onlarda Vətənə, xalqa məhəbbət hisləri aşılanmalıdır. Milli kimliyi, milli mənəviyyatı ilə fəxr etməyən şəxs vətənpərvər ola bilməz. Vətən orada yaşayan insanların kimliyi, milli təyinatı ilə fərqləndirilir. Odur ki, hər bir insan mənsub olduğu xalqın dünəni, tarixi keçmişi ilə tanış olmağa, hər yerdə hər zaman öz xalqının mütərəqqi ənənələrini təbliğ etməyi bacarmalıdır. Bu işdə həlledici rol müəllim, onun pedaqoji ustalığı və məktəbliləri inandırma bacarığı əsas rol oynayır.

2001-ci ilin noyabrında Dünya Azərbaycanlılarının Qurultayında bu məsələ üzərində xüsusi dayanan ümummilli liderimiz Heydər Əliyev demişdir: "Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm ki, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Məktəblilərin gələcəyimizin qarantı olan bir şəxsiyyət kimi formalaşdırılması məqsədi mənəvi və iradi keyfiyyətlərin aşılanmasını nəzərdə tutur ki, bunlarında aparıcılarından biri Vətənpərvərlikdir. İndi dövlətimizin ideologiyasını təbliğ edərkən Vətənpərvərlik tərbiyəsinin həmişəkindən daha çox sistemli şəkildə aparılması tələb olunur. Bu gün Azərbaycan şəhidlər itirən yaralı anaya bənzəyir, çünki, müqəddəs Vətən torpaqları erməni işğalçılarının tapdağı altındadır. Dərdlərimizin tezliklə sağalması üçün Azərbaycanın fədakar oğullarını, vətənpərvər oğullarını, dövlətin ideologiyasını dəstəkləyən oğullarını düz yola istiqamətləndirməliyik. Çünki, tərbiyə işində milli mənlik şüurunu, milli kimliyini dərk etməyən insan dövlətin ideologiyasının ondan nə tələb etdiyini anlamaz.

Vətənpərvərlik tərbiyəsi vətəndaş hazırlığına xidmət edir. Yalnız vətənpərvər olan şəxs hüquqi vətəndaş kimi öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilər. Əsl vətəndaş tərbiyə etmək məsələsi dövlətçiliyin əsas dayaqlarından hesab edilir. Vətənpərvərlik həm də mənsub olduğun xalqa məxsus dəyərləri sevib qorumaqdır. Bu gün təhsil sahəsində keçirilən islahatlar tərbiyə işlərinin köklü şəklində yeniləşməsini tələb edir. Məktəbdə təhsil alma dövrü çox uzundur. Bu dövrdə tərbiyə şəxsiyyətin sosiallaşmasının çox mühüm mərhələsidir. Bu zaman kəsiyində insan bütövlükdə özünün həyat mövqeyinin təkmilləşdirilməsinin bünövrəsini qoyur, dünyaya baxışını və bu dünyada gələcək şəxsi həyatını müəyyən edir. Şüurlu olaraq özünüinkişaf və özünütərbiyə mərhələsinə keçir. Gələcəkdə öz işini istiqamətləndirməyi bacaran yüksək mənəviyyatlı, mədəniyyətli insan yetişdirmək üçün tərbiyənin aşağıdakı vəzifələrini unutmamalıyıq.

— Dövlətin ideologiyası naminə vətəndaşlıq mövqeyi və vətənpərvərlik şüurunun formalaşdırılması;

— Mənəvi və mədəni vətənpərvərlik tərbiyəsinin forma və yollarının formalaşdırılması;

— Gələcək həyatlarında yaradıcılıq və peşəkarlıq bacarıqlarının həyata keçirilməsi üçün şəraitin yaradılması;

— Vətənsevərlik, azərbaycançılıq ənənələrinin inkişafı və möhkəmləndirilməsi.

Ümumiyyətlə tərbiyə fasiləsiz yaradıcılıq axtarışları prosesidir. Məktəblilərin tərbiyəsində aparıcı rol məktəbin kollektivinə məxsusdur. Müasir dövr üçün ideoloji tərbiyə fasiləsiz olaraq yaşlı nəsildən gənc nəslə ötürülməsi kimi deyil, həm də müəllim və şagirdlərin təlim və təlimdənkənar birgə fəaliyyəti zamanı qarşılıqlı əməkdaşlığıdır. Tərbiyənin məktəblilərə təsir edən subyektlərindən biri məktəbin bütün mühitidir, buna görə də tərbiyə mühiti məktəbin bütün əməkdaşlarının gücü ilə formalaşır. Məktəblərdə ideoloji tərbiyə işi hər cəhətdən güclü təbliğat olunmalıdır. Çünki məktəb dövlətin ideologiyasını daima zənginləşdirən, yaradıcı, demokratik xarakter daşıyan gənclər yetişdirməlidir. Burada milli ideologiya heç vaxt unudulmamalıdlr. Ona görə ki, müstəqil dövlətimiz dövlətlər arasında hələ çox gənc dövlətdir. Milli ideologiya vətəndaş həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən vasitədir. Hər bir dövlətin ərazi, iqtisadi, milli əsasları olduğu kimi, ideoloji əsasları da olmalıdır. Milli ideologiya öz funksiyasına görə milli həmrəylik və milli bütövlüyü təmin edən ümummilli baxışlar sistemidir. Azərbaycanın milli və dövlət maraqlarına cavab verən azərbaycançılıq ideologiyası var.

Deyilənlərdən aydın olur ki, vətənpərvərlik tərbiyəsi böyük bir qalanın tikilməsi qədər asan iş deyil. Bu tükənməz həyat mənbəyi olan milli-mənəvi, milli-əxlaqi, milli mənafe

yaratmaq deməkdir.

Milli ideologiya bir millətin ictimai-sosial, milli-mədəni, mənəvi dəyərlərinin mühafizəkar formada qorunmasını və saxlanılmasını təmin edən elmi-fəlsəfi konsepsiyalar toplusudur. Milli ideologiya hər şeydən öncə dövlətimizin möhkəmləndirilməsinə xidmət edən, xalqın milli özünüdərkini kortəbii inkişafından, mütəşəkkil formaya keçməsinə zəmin yaradan sistemli prinsiplərdən ibarətdir. Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini özünəməxsus olan yerdə tapmalıdır. Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".

Həyat yerində durmur, dünya hər gün dəyişir, daim inkişaf edir və bu dəyişikliklərlə daima ayaqlaşmaq üçün böyük zəhmət hesabına qazandığımız uğurların qorunub saxlanılmasını təmin etməliyik. Azərbaycanda sağlam vətənpərvərlərin yetişdirilməsi milli ideologiyamızın qorunub saxlanılması üçün ümummilli məsələyə çevrilməlidir.

**Məqalənin aktuallığı**. Demokratik düşüncə formalaşdığı bu dövrdə gənc nəslin ideoloji tərbiyəsi, milli və ümumbəşəri keyfiyyətlərin mənimsənilməsi məsələləri daha böyük aktuallıq kəsb edir. Vətənpərvərlik mənəvi keyfiyyətlərin daşıyıcısıdır. Belə keyfiyyətlərin gənc nəslə ötürülməsi, yeniyetmələrə aşılanması vacibdir.

**Məqalənin elmi yeniliyı**. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Heydər Əliyev ideyalarının aşılanması, gənclərin Vətənə, xalqına, dövlətinə olan ictimai-siyasi sevgisi, sədaqəti şəxsiyyətin formalaşdırılması üşün gənc nəslin ideoloji tərbiyəsində əvəzsiz mənbə ola bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə həm praktik, həm də nəzəri cəhətdən əhəmiyyətlidir. Məqalədəki tövsiyələrdən ali və orta ixtisas məktəblərinin müəllimləri, dissertantlar, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat proqramı. Bakı, 1999.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
4. Ağayev Ə.Ə. Nəsillərə örnək insan. Bakı: Mütərcim, 2016.
5. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2011.
6. İlyasov H.B. Müasir şəraitdə şagirdlərin vətəndaşlıq tərbiyəsi // Azərbaycan məktəbi, 1996, № 3.

**Ф. Аллахвердиева, А. Байрамова**

## Лоббирование национальной идеологии в воспитании патриотизма у молодежи

## Резюме

Независимость и суверенное государство, развивая исторически-моральные ценности, требует формирования качественного национального единства. То есть учителя в процессе преподавания должны направлять мышления подростков и молодежи так, чтобы они смогли бороться за развитие родины. Наша национальная

идеология должна войти в наше сознания при помощи семей и учебных заведений, а также должна являться неотъемлемой частью нашей жизни.

**F. Allahverdiyeva, A. Bayramova**

## Lobbying of national ideology in education of youth patriotism


## Summary

National unity should be organized by developing of historical-moral values of independent country. Professors, in teaching process, must guide the thinking of teenagers and youth so as they can fight for the development of homeland. Our national ideology must enter in our consciousness with the support of families and universities and also must be an integral part of our life.


**Redaksiyaya daxil olub:** 01.05.2018